## İctimai və dövlət maraqlarının müdafiəsi




# Azərbaycan əsgəri Naxçıvana da yol açır

## "Mehridən Naxçıvana dəhliz verilməsi məsələsi böyük və həyati əhəmiyyət daşıyır"

**Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi qələbə sayəsində ölkəmiz və xalqımızın hansı üstünlüklər, geniş imkanlar əldə etdiyi zaman keçdikcə daha aydın görünəcək. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2020-ci il sentyabrın 27-dən başlanan Vətən savaşı müddətində istər xalqa müraciətləri zamanı, istərsə də xarici mediaya verdiyi müsahibələrdə Qarabağ bölgəsindən erməni terrorçuları və separatçılarının dəf olması, Azərbaycan ordusunun qalibiyyəti nəticəsində regionda sülh və əmin-amanlığın hökm sürəcəyini, yaranan sabitlikdən nəinki bölgənin, ümumilikdə region əhalisinin daha yaxşı yaşamaq imkanları əldə edəcəyini bildirirdi.**

Artıq daha firavan gələcəyin konturları görünməkdədir. Təkcə, Qarabağ və ətraf bölgələr üçün deyil, eyni zamanda bir əsrdən artıqdır blokadada yaşayan, Azərbaycan dövləti ilə əlaqələri yalnız hava məkanı vasitəsilə olan Naxçıvan üçün də. Sovet insanı yaxşı xatırlayar ki, hələ o vaxtlar Naxçıvana qatarla gedib gələnlər Mehridən - rəsmi olaraq Ermənistan ərazisindən keçirdilər. Bu da ürəyimizdə bir yara idi ki, öz torpağımızda hansısa qondarma bir dövlətin sərhədçiləri yoxlama aparır, sənəd-pasport tələb edir. İndi isə vəziyyət dəyişir. Naxçıvan blokadadan çıxır.

Bu məsələni xüsusi vurğulamalıyıq ki, Prezident İlham Əliyev qələbə münasibətilə xalqa müraciətində Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsinin imzalanmış üçtərəfli bəyanatda əksini tapdığını bildirdi.

**Dövlət başçısı daha sonra vurğuladı:** "Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı".

Cənab Prezidentin bu təkidli tələbi dövlət və vətəndaş maraqlarının hər zaman olduğu kimi üstün tutulduğunun sübutudur. Bununla nə baş verəcək? Naxçıvan blokadadan çıxır. Naxçıvanla Azərbaycan dövlətinin digər əraziləri arasında birbaşa gediş-gəliş təmin edilir. Əhali rahat bir şəkildə hərəkət edir, ticarət əlaqələri asanlaşır, iqtisadi imkanlar genişlənir. Qardaş Türkiyə də təkcə Naxçıvanla deyil, Azərbaycan dövlətinin digər ərazilərinə quru yolla sərbəst gediş imkanı əldə edir.

### Əhali daha sərbəst və rahat hərəkət edəcək

Naxçıvana quru yolla birbaşa reyslərin açılması gediş-gəlişi üç dəfəyə qədər artıra bilər. Bunu Trend-ə açıqlamasında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova bildirib.

Onun sözlərinə görə, bu günə kimi insanlar Naxçıvana quru yol ilə İran üzərindən gedirdilər. Sərnişinlər 4 dəfə gömrük yoxlanışından keçdikləri üçün onlar Naxçıvana 12 saata çatırdılar, ancaq 2019-cu ildə gömrük yoxlanışları iki dəfəyə qədər azaldığı üçün bu yol 8 saata kimi azaldıldı. Gələcəkdə səmişinlər öz ərazimizdən keçməklə Naxçıvana gedərlərsə, bu müddət qat-qat aşağı olacaq:

"Naxçıvana reyslər 2007-ci ildən başlayıb. O vaxt Azərbaycanın keçmiş Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında memorandum imzalanmışdı. Həmin memoranduma əsasən Bakıdan İran ərazisindən Naxçıvana avtobus nəqliyyatı üçün marşrut xətti açıldı. Pandemiyaya qədər gün ərzində qonşu dövlətin ərazisindən keçməklə Naxçıvana 3 avtobus yola salınırdı, yalnız xüsusi günlərdə bu say 5-ə çatdırılırdı. Bundan əlavə memorandumun şərtlərinə uyğun olaraq daşıyıcı şirkətlərin 50 faizi qonşu dövlətdən olmalı idi. Bu da öz növbəsində bölgədə Azərbaycan daşıyıcılarının tam şəkildə fəaliyyətinə imkan vermirdi. Həmçinin 2007-ci ildən avtomobil yolu ilə Naxçıvana resylər yalnız gecə vaxtı həyata keçirilirdi. Gediş-gəlişə tələb çox olduğu üçün 2019-cu ildən reyslər gündüz vaxtı da həyata keçirilməyə başladı".

### Ərazi mübadiləsi hərb tarixlərində mövcuddur

Hamımız bilirik ki, ermənilərin Azərbaycana ərazi iddiaları, Dağlıq Qarabağı özünküləşdirmək, qondarma dövlət yaratmaq arzuları SSRİ-nin dağılması ilə yenidən baş qaldırdı. Tarixə ekskurs etməyəcəyik. Qısaca bunu xatırladaq ki, Azərbaycanın Ermənistan silahlı birləşmələri ilə üz-üzə dayandığı və Vətən savaşının aktiv fazası olan 1991-94-cü illərdə də ərazi mübadiləsi planı ortaya gəlmişdi. O zaman ABŞ, Minsk qrupunun üzvü kimi Ermənistan-Azərbaycan probleminin həlli ilə bağlı tərəflərə "planlar" təqdim etməyə başlamışdı. İlkin plan 1992-ci ildə, SSRİ problemləri üzrə ABŞ Dövlət Departamentinin keçmiş müşaviri, Karneqi fondunun elmi işçisi Pol Qobl vasitəsilə bildirilmişdi.

Pol Qobl MKİ-nin analitiki olaraq xidmət edirdi və Amerika kəşfiyyat icmasının ən görkəmli nümayəndələrindən biri hesab edilirdi. Daha sonra ABŞ Dövlət Departamentinin Kəşfiyyat və Araşdırma Bürosunun əməkdaşı olaraq. Sovet və post-sovet ölkələrinə dair güclü analitiklərdən biri kimi tanınmışdı.

Planın ilk versiyası 1992-ci il yanvar ayında təsdiq edildi və ata Corc Buş administrasiyası tərəfindən dəstəkləndi. Vaşinqtonun bu addımı aydındır. Cənubi Qafqazda ABŞ-ın regiona daxil olması və bərkiməsi üçün siyasi sabitlik lazım idi. Regionun bütün istiqamətlərində ABŞ-ın möhkəmlənməsini təmin edəcək bu plan, Qarabağ məsələsinin həllini önə çəkərək Vaşinqtonun maraqlarını tam təmin edirdi. ABŞ-ın layihəsi, daha sonra "Qobl Planı" kimi adlandırılmağa başlandı. Qobl planında ərazi mübadiləsi ilə problemin həlli məsələsi önə çəkilirdi. Azərbaycan Laçın dəhlizi vasitəsilə Qarabağda yaşayan ermənilərin Ermənistanla əlaqələrini təmin edir, Ermənistan isə Mehri yoluyla Naxçıvanın Azərbaycanla əlaqələrini. Tarixdən məlumdur ki, bu plan, plan olaraq da qaldı. Və münaqişə 28 il ərzində həll edilməmiş qaldı. Minsk qrupunda həmsədr olan dövlətlərin və beynəlxalq aləmin susqunluğu, Azərbaycan həqiqətlərinə qulaqlarını bağlamaları səbəbindən. Amma Azərbaycan dəyişdi, inkişaf etdi, güclü müdafiə sistemi, ordu yaratdı. Müzəffər əsgərlərimizin qazandığı qələbə ilə Qarabağımızı geri aldıq, mənfur düşməndən. Hələ ki, ortada 3 dövlətin imzaladığı bəyannamə var və orada Azərbaycanın üstünlüyü tam aşkardır. Ordumuzun qazandığı qələbə bizə həm də Naxçıvanı blokadadan çıxarmaq imkanı verdi.

### "Sənəddə Naxçıvanla bağlı xüsusi bəndin olması önəmlidir"

**Bu barədə millət vəkili Ceyhun Məmmədov danışıb. Millət vəkili deyib ki, Prezident, Ali Baş Komandan İlham Əliyev təkidlə tələb etdi və münaqişənin tənzimlənməsi ilə bağlı imzalanan bəyanata Naxçıvan ilə əlaqəli çox önəmli bir bənd əlavə olundu.** Uzun illərdən sonra Naxçıvan blokadadan çıxaraq, Azərbaycanın əsas hissəsi ilə birbaşa avtomobil yolu əlaqəsinə malik olacaq. Naxçıvan blokadadan çıxarılır. Nəhayət uzun illər sonra, Azərbaycan vətəndaşları Nəqşi-Cahanımız olan Naxçıvana daha rahat gedib-gələ biləcəklər.Millət vəkilinin sözlərinə görə, bu istiqamətdə sovet dövründə salınan avtomobil yolu, o cümlədən dəmiryol xətti bərpa edilə və ya tamamilə yeni bir yol çəkilə bilər. *Millət vəkili deyir ki, bu yolun açılması həm ölkə, həm də regionun iqtisadiyyatına ciddi təsirlər göstərəcək*. Qeyd edək ki, üçtərəfli bəyanatla Rusiya tərəfi Ermənistan ərazisi ilə Naxçıvana dəhlizin açılmasını öz üzərinə götürüb. Naxçıvanda Dağlıq Qarabağda yaşayan ermənilərdən iki-üç dəfə çox azərbaycanlının yaşaması və Azərbaycanın həmin vətəndaşlarına tarixi Azərbaycan torpağı olan Mehridən birbaşa gediş-gəliş üçün dəhliz ayrılması məsələsi əvvəllər də qaldırılıb. Laçın dəhlizi məsələsi ermənilərin daim üzərində təkid etdikləri şərt olub. Onlar deyirdilər ki, Dağlıq Qarabağda yaşayan ermənilərin Ermənistana sərbəst gediş-gəlişi Laçın dəhlizi vasitəsilə təmin edilməlidir. Azərbaycan da Mehridən Naxçıvana dəhliz məsələsini danışıqlar masasında gündəmə gətirirdi.

Lakin ermənilər o illərdə özlərini güclü sayırdılar, ona görə də bu cür təklifləri qəbul etmirdilər. Birmənalı güzəştsiz mövqedə qalırdılar. Onlarda bir düşüncə var idi ki, Azərbaycan uzun müddət dözəcək və işğal faktı ilə barışıb Dağlıq Qarabağın müstəqilliyini tanıyacaq. Bu özündən müştəbehlik Ermənistanı nəinki Mehri məsələsində, hətta Dağlıq Qarabağın ətrafındakı işğal altındakı bircə rayonun da geri qaytarılması təklifini rədd etməyə sövq eləyirdi. Lakin vəziyyət dəyişdi, Azərbaycan Ordusu həm Aprel döyüşlərində, həm də Tovuz müharibəsində gücünü göstərdi. Sentyabrın 27-dən Azərbaycanın başlatdığı Vətən savaşında isə darmadağın edildilər və kapitulyasiyaya məcbur oldular. Mehridən Naxçıvana dəhliz verilməsi məsələsi böyük və həyati əhəmiyyət daşıyır. Bu, Naxçıvan Muxtar Respublikası əhalisinin blokadadan çıxması, Azərbaycana qısa quru yolunun açılması deməkdir. Onsuz da Mehri Azərbaycanın tarixi torpağıdır. Biz öz torpağımızla hərəkət edəcəyik, adı, hələ ki, Ermənistan respublikası olsa da.

Azərbaycan dövləti öz vətəndaşlarının birbaşa gediş-gəlişini təmin edəcək. Nəzərə alaq ki, əhalinin say nisbətinə görə Naxçıvanda yaşayan azərbaycanlıların sayı hazırda, artıq yeni şərtlər altında Qarabağda qalan ermənilərin sayı ilə müqayisəyəgəlməz dərəcədə böyükdür. Belə vəziyyətdə Azərbaycan, həm də qalib ölkə kimi, Naxçıvanla quru yolun olmasını istəməsində və tələb etməsində tam haqlıdır, nəinki Ermənistan Qarabağda qalmış bir ovuc erməninin gediş-gəlişi üçün "narahatlığı"nda. Prezidentin dediyi kimi, kommunikasiyaların bərpası ümumilikdə region ölkələrinə daha yaxşı yaşayış vəd edir. Çəkiləcək dəmir yolu, eyni zamanda avtomobil yolları ilə təkcə Naxçıvan vətəndaşları deyil, regiondakı digər əhali də istifadə edə biləcək. Bu isə insanların iqtisadi imkanlarının genişlənməsi, sosial şəraitin yaxşılaşması deməkdir. Bunu edənsə Azərbaycan əsgəridir. Məhz Azərbaycan əsgəri qanı, canı bahasına regiona sülh gətirdi, əmin-amanlıq yaratdı. Bu heç bir halda hansısa üçüncü qüvvənin bacaracağı iş deyildi. Və olmadı da.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunub